**Gülçin bütün əzablarını, ən məhrəm sirlərini mənimlə paylaşırdı. Bu mənim həm xoşuma gəlməyə başlamışdı, həm də əsəbiləşdirirdi. Gülçin, sadəcə, bir pasiyent deyil, bir cazibə mərkəzi idi. Amma bəyəm, mən bunu qəbul edə bilərdimmi? Bu sevgi, bu ehtiras, mənim üçün yolverilməz idi... Özümü ələ almalı, işimə peşəkarlıqla davam etməliyəm. Bir neçə sual verdikdən sonra yeni resept yazdım, tövsiyələrimə riayət etməsini tapşırdım. İndi mən özüm də ürəkdən arzulayırdım ki, o, bu sevgi vəsvəsəsindən sağalsın, Yalçını unutsun... Növbəti seansı bir həftədən sonraya təyin etdim.**

Hüseynbala MİRƏLƏMOV-80

# Eşqin rəngləri

*Romandan hissə*

*(Əvvəli ötən saylarımızda)*



**Hüseynbala MİRƏLƏMOV**

*Müəllif -*
*Gülçin - 32 yaşında, istedadlı rəssam*
*Böyükkişi - 35 yaşında, Gülçinin əri*
*Yalçın - 34 yaşında, Böyükkişinin müdiri*
*Nemət - 45 yaşında, tanınmış psixiatr*

***Nemət***

...İşlərimi yekunlaşdırıb klinikadan çıxanda hava qaralmışdı. Küçədə qəribə səssizlik hökm sürürdü. Bu boğucu sükut içimdəki hay-küylə amansız ziddiyyət təşkil edirdi. Küçələr sanki nəfəs almırdı, binalar donmuş, göylər ağırlaşıb yerə doğru sallanmışdı. Mən isə zahirdə səliqəli geyimim, ölçülüb-biçilmiş addımlarım, sakit və mühakiməli baxışlarımla həmişəki kimi idim. Hər kəsin gözündə əmin, təmkinli və nəzarətli bir həkim... Amma daxilimdə başqa bir Nemət var idi. O, susmaq bilmirdi, danışırdı, haray çəkirdi. Sanki içimdə iki adam yanaşı yaşamağa başlamışdı. Biri - peşəkar, sərhədlərini tanıyan həkim; digəri isə - səbirsizlikdən ürəyi çırpınan, duyğularının hökmünə tabe olan çılğın aşiq. Sanki çöldəki sükutun ağır qapısını itələyib gecənin qucağına atıldığım anda hiss etdim ki, içimdə bir vulkan var, uzun müddət yatmış, nəhayət, qıvrılıb oyanan bir ehtiras vulkanı. Hər addımda içimdəki səs bir az da yüksəlir, o vulkan bir az da qaynayırdı... Düşüncələrimin axarı məni yavaş-yavaş Gülçinin xəyalına doğru aparırdı. Onu ağlımdan çıxara bilmirdim. Üzünün, bədəninin cizgiləri yaddaşımın fonunda asılıb qalan rəngli tablo kimi idi. Evə çatıb açarı qapıya salanda ürəyimdən qeyri-adi bir arzu keçdi: kaş ki, məni evimdə Gülçin qarşılayaydı... Qapını açıb boynuma sarılaydı, dodaqlarıma yapışaydı, uzun illərin həsrətlisi kimi onunla öpüşərdik... Qapı açılanda məni subay kişi evinin özünəməxsus qaranlığı və sükutu qarşıladı. Mətbəxə keçib işığı yandırdım, içki masasının üzərindən viski götürüb azca süzdüm, soyuducudan iki- üç kiçik buz parçası götürüb qədəhimin içinə atdım, demək olar ki, birnəfəsə içdim. Elə ilk dəqiqələrdən acqarına içdiyim tünd içki beynimi dumanlandırdı, bədənimə xoş bir ağırlıq çökdü. Sərxoş olmağa başladım. Amma beynim nə qədər dumanlansa da, səhər Gülçinin növbəti seansa gələcəyini xatırlayırdım. Elə sərxoşluğun dumanı altında bu bəhanə ilə ona zəng etmək istədim. Gülçin telefonu açanda özümü yığışdırıb rəsmi şəkildə salamlaşdım, dilim dolaşsa da, ciddi tonla sabah terapiya seansı olduğunu nəzakətlə xatırlatdım. Əslində dərdim seans-filan deyildi, sadəcə sabah mütləq onu görmək istəyirdim. Bir həftəni birtəhər yola vermişdim. Gülçin incə səsi ilə "gələcəyəm, doktor" deyib, sağollaşıb telefonu qapatdı. Mən isə özümü birtəhər yatağıma çatdırdım. Elə pal- paltarlı yerimə sərildim. Elə sərxoş olmuşdum ki, geyimimi çıxarmağa belə halım qalmamışdı.

...Səhər lap ertədən ayılıb duşa girdim, yaxşıca yaxalandım, dişlərimi möhkəmcə fırçaladım ki, axşamkı içkinin qoxusu gəlməsin. Özümə əməlli-başlı əl gəzdirəndən sonra acı qəhvə dəmləyib içdim. Paltar qarderobumun qarşısında uzun müddət nə geyinəcəyimi düşündüm. Elə geyinmək istəyirdim ki, Gülçinin xoşuna gəlim, diqqətini cəlb edim. Seansların birində sözarası yasəməni rəngi çox sevdiyini demişdi. Yasəmən rəngli kətan köynəyimi geyinib tünd bənövşəyi qalstukumu taxdım. Daranıb-ətirlənib qəlbimdə az qala ilk gənclik həyəcanı ilə evdən çıxdım. Yolüstü bir dəstə yasəmən aldım - Gülçin üçün... Kabinetimin qapısını açıb içəri daxil olanda, adətim üzrə hər tərəfə göz gəzdirdim, səliqəsiz sənədləri qaydaya saldım, özümə qəhvə dəmlədim. Divardakı psixodinamik sxemlərə göz gəzdirdim, otağı qəhvə və kağız qarışığı xoş bir qoxu bürümüşdü. Kitab rəfində Freydin, Yunqun kitabları öz dəyişməz mövqelərində baş-başa dayanmışdılar. Günə, adətən rəfdəki kitablardan birini vərəqləyərək başlayardım. Lakin bu gün elə bil gözümə heç nə görünmürdü, bu gün onların hər biri mənim üçün sadəcə dekor, cansız, səssiz əşyalar idi. İndi qəlbimdə baş verənləri nə Freydin libido nəzəriyyəsi, nə Yunqun arxetipləri izah edə bilərdi.

Gülçinlə ilk dəfə rastlaşanda gözəlliyinin yaratdığı estetik bir auraya bürünmüşdü. Baxışları səssiz idi, amma o sükutun içində bir çağırış vardı. Zərif hərəkətləri, dərin və məchul səsi, danışarkən dodaqlarında yaranan titrək ifadə... Zaman keçdikcə o mənim üçün sadəcə bir pasiyent olmaqdan çıxmış, içimdə dərin qatlara nüfuz edən dəyərli varlığa çevrilmişdi. Onu düşündüyüm an zaman və məkan mənasını itirir, reallıq bulanıqlaşırdı. Gülçinin seansı günortadan sonra olmalı idi.

Fikrimi toplayıb xəstələrimi qəbul etməyə başladım. Bu gün bir pasiyent belə dedi: "Doktor, mənə elə gəlir ki, sevgi insanın özünü itirməklə özünü tapmaq dilemması arasındakı məqamdır. Mən onu sevirəm, amma bu sevgi məni mən olmaqdan çıxarır, sanki getdikcə başqa birinə çevrilirəm... Özüm də bəzən bu yeni "mən"ə mat qalıram".

O sözləri eşidəndə elə bildim özümü, daxili səsimi dinləyirəm. O pasiyentin simasında özümü gördüm, o cümləni deyən sanki mən idim. Peşəkarlığa bürünmüş, amma içində aşiq bir kişinin təlatümü ilə yaşayırdım. Tələbə olanda da müxtəlif vaxtlarda aşiq olmuşdum, amma heç birində indiki kimi duyğular burulğanında qalmamışdım. Bəli, mən Gülçinə vurulmuşdum. Bu hiss, sadəcə bir maraq, ani bir duyğu deyildi. Bu, peşəkar soyuqqanlılığımı alt-üst edən, illərlə qurduğum daxili arxitekturanı söküb-tökən dəli ehtiras idi. Sanki hisslərim məcrasından çıxmış çay kimi məni tanımadığım, qaranlıq və cazibədar sahillərə sürükləyirdi...

...Günortadan sonra Gülçin gəldi. İçəri girəndə az qaldı ürəyim həyəcandan sinəmdən çıxa... İpək kimi parlaq saçlarını zərif çiyinlərinə tökmüşdü. Əyninə tünd bənövşəyi rəngdə zərif kostyum geyinmişdi. Danışarkən səsinin titrək çaları, əllərinin zərif, çevik hərəkətləri ağlımı başımdan alırdı. Mən - illərlə psixoloji strukturları analiz edib çözmüş bir psixiatr, indi bu qadının qarşısında özümə yadlaşırdım. Savadım, təcrübəm, analitik gücüm - hamısı onun önündə mənasızlaşırdı. Onun yanında mən aciz ruh, kövrək bədən, qərarsız qəlb idim. Bu, izah edə bilmədiyim bir vəziyyətdir. Sanki mən özümün içində sıxışıb daşlaşan obraz idim - Gülçin isə o obrazı yonub ortaya çıxaran bir heykəltaraş... Səhər gələndə aldığım yasəmən dəstəsini ona verəndə gözləri güldü, elə ürəkdən minnətdarlıq elədi ki, dünyadakı bütün yasəmənləri onun ayaqları altına sərmək istədim. Əhvalı da yavaş-yavaş düzəlirdi, əvvəlki kimi ağlamırdı. Yalçınla emalatxanada olan görüşlərini şirin-şirin xatırlayıb sanki yaddaşının küncündən çıxarır və qiymətli xəzinə kimi mənimlə bölüşürdü. Yalçın haqqında danışanda qısqanclıqdan qəzəblənirdim, baxışlarımı ondan gizləməyə çalışırdım. İndiyədək hər şeyə nəzarət edən mən - indi içimdəki eşqə nəzarət edə bilmirdim. Sağollaşıb çıxanda incə barmaqlarını ehmalca sıxıb heç buraxmaq istəmirdim. Bu anın sonsuzadək davam etməsini arzulayırdım. Amma həyat hər arzumuzu nəzərə almır. O, otaqdan çıxandan sonra ürəyimdə ona qiymətli varlığına görə, məni altüst edən o daxili fırtınaya görə pıçıltıyla təşəkkür etdim. O getdi. Lakin ətri otaqda qaldı, nəfəsinin istiliyi pərdələrin arasında dolaşdı. Yoxluğu da mənim üçün dəyərli idi, çünki yoxluğunda da bir an olsun fikrimdən çıxmırdı. Ağlımdan durmadan fikirlər titrər kimi keçib gedirdi: gələn seansa qədər onu bir dəfə qəhvəyə dəvət edib bu dəfə həkim-xəstə kimi yox, iki insan - kişi-qadın kimi söhbətləşmək... Fikrimi qətiləşdirdim, bir neçə gündən sonra zəng edib onu görüşə çağıracağam...

***Böyükkişi***

...Son günlərdə Gülçinin dəyişən tərzi, bəzi qəribə halları məni narahat etməyə başlamışdı... Hər gün o, məndən bir az da uzaqlaşır, getdikcə bir evin içində yaşayan iki yada çevrilirdik.

Yalçınla getdikcə daha da yaxınlaşdıqlarını, telefonla danışmalarını, bütün gün mesajlaşdıqlarını bilirdim. Onların münasibəti məni əvvəllər narahat etməsə də, getdikcə işdə Yalçının əhvalında, xarakterində olan dəyişiklikləri gördükcə qorxum, narahatlığım artırdı. Deyəsən, onlar bir-birinə həqiqətən, aşiq olmuşdular. Əvvəllər düşünürdüm ki, Yalçın onsuz da şorgözün biridir, bir az həvəsini alandan sonra Gülçindən əl çəkəcək. Lakin işdə Yalçının gülə-gülə danışdığı telefon zənglərindən Gülçinlə danışdığını təxmin etməyim bir yana, onsuz qala bilməməsini hiss etməyim məni getdikcə kədərləndirməyə başlamışdı. Dəfələrlə olurdu ki, kabinetinə girəndə telefona "bir dəqiqə gözlə" deyib, mənə əli ilə çıxmağımı işarə verirdi. Artıq mənimlə heç nəyi məsləhətləşmir, danışmırdı. Əvvəllər biz Yalçınla dərdləşir, həyat haqqında maraqlı söhbətlər edərdik. İndi isə mən təkcə Gülçinin deyil, Yalçının da özündən uzaq tutmaq istədiyi adam idim. Gülçin sanki gəlib Yalçının yanında olan hörmətimi də əlimdən almışdı. Qorxum ən çox ona görə idi ki, Yalçın bir gün Gülçinin arzusu ilə məni işdən çıxarar. Ona görə də evdə Gülçinə dəyib-dolaşmamağa, hətta yeri gəldi-gəlmədi, yaltaqlıq edib könlünü almağa çalışırdım. Amma onların bir-birinə olan istəyinin ehtirasdan çox, getdikcə daha dərin bir münasibətə çevrilməsi məni içəridən güvə kimi yeyib-bitirirdi.

Bu gün işdə dəhlizdə Yalçınla qarşılaşdıq. Ağızucu salamlaşdı, məni başı ilə kabinetinə çağırdı. Qəribə bir narahatlıq hissi keçirdim, elə bil müəllim qarşısında imtahan verəcəkdim.

Yalçın kreslosunda bir az yayxanaraq oturdu. Əlindəki qələmi barmaqlarının arasında çevirə-çevirə diqqətlə mənə baxdı.

- Bilirsən, səni niyə çağırmışam, Böyük? (Hərdən mənə belə deyirdi - bu xitabında həm dostyanalıq, həm də istehza gizlənirdi)

Gözüm onun arxasındakı pəncərəyə sataşdı. Oradan görünən boz səma bulanıq əhvalıma bənzəyirdi.

- Desəniz, bilərəm, Yalçın müəllim... - səsimdə həyat yorğunluğundan və bezikmişlik hissindən yaranan çarəsizlik vardı.

Bir az susdu, sonra dedi:

- Gülçinin sərgisində olandan sonra arada zəngləşirik, rəssamlıq, sənət haqqında maraqlı söhbətlər edirik, yəqin ki, xəbərin olar, sənə deməmiş olmaz...

Onun səsindəki sınayıcı tonun nə mənə verdiyini özlüyümdə çözməyə çalışdım. Desəm, xəbərim var, bəlkə Gülçinə hirslənəcək? Desəm, xəbərim yoxdur, fikirləşməzmi sən necə kişisən ki, arvadına kimin zəng elədiyindən xəbərin yoxdur?! Ölmək ölməkdir, xırıldamaq nə deməkdir, özümü yenə axmaq yerinə qoydum:

- Yox, xəbərim yoxdur, Yalçın müəllim, axır vaxtlar zavodda iş-güc başımı elə qatıb ki, Gülçini ancaq gecədən-gecəyə görürəm, mən yeməyimi yeyib bitirənə qədər o, ya çoxdan yuxuya getmiş olur, ya da evdəki iş otağında tablo çəkməklə məşğul olur... Dediyim odur ki, demək olar ki, son vaxtlar Gülçinlə az-az rastlaşırıq, - deyib hırıldadım...

- Hm... Belə de... Sevib evlənmisiz, Böyük?

- Bəli...

- Bəs indi sevirsən arvadını?

Nə cavab verəcəyimi bilməyib baxışlarımı qaçırdım, qeyri-müəyyənliklə çiyinlərimi çəkdim. Yalçın həminki soyuq, özündən əmin təbəssümü ilə gülümsədi. Sonra elə həminki əminliklə, guya zarafatyana sözünə davam etdi:

- Gülçinlə danışdıqca görürəm ki, o, incə ruhlu, yaradıcı, kövrək qadındı, birdən onu incidib-eləmək fikrinə düşsən, dostluğumuz pozular ha, Böyükkişi...

- Yox, Yalçın müəllim, niyə incidim? Bayaq dediyim kimi, Gülçini gündə bir dəfə, ya görəm, ya görməyəm. Onda da danışmırıq ki, susur neçə vaxtdır...

- Səncə... qadın nə vaxt susur?

- Sevməyəndə... - Qısa, sərt və hədəfi dəqiq vuracaq qədər düşünülmüş cavab verdim.

Bir anlıq sükut çökdü. O, bu cavabı gözləmirdi, amma eyni zamanda elə bil bu cavabı almaq üçün o sualı verməmişdi.

- Madam ki, dərdləşirik, Yalçın müəllim, deyim, arvadım məni çoxdan sevmir, bəlkə heç evlənəndə də sevməyibmiş...

Yalçın alt dodağını yavaşca dişləyib fikrə getdi. Özünü təmkinli göstərməyə çalışsa da, bu cümlə onu silkələmişdi.

- Əgər bir gün bilsən ki, Gülçin kimisə sevməyə başlayıb, neyləyərsən, Böyük? Boşanarsan?

- Bəzi itkilər səssizcə yaşanır, müdir. Mən artıq bu oyunun məğlubuyam, bundan sonra Gülçinin kimisə sevməsi nəyi dəyişir? Biz indi Gülçinlə bir evi bölüşən, bir-birinə yalnız sakitlik və yuva rahatlığı verən iki otaq yoldaşıyıq. Sevgi müvəqqəti hissdir, Yalçın müəllim, sevginin itirilməsi elə də böyük itki deyil...

Yalçın kreslosundan qalxıb pəncərəyə yaxınlaşdı. Arxasını mənə tərəf çevirib dedi:

- Bəlkə də sən düşündüyündən daha çox şeylər itirmisən, Böyük. Get, işinlə məşğul ol...

Ayağa qalxdım. Sürətlə otaqdan çıxıb qapını yavaşca örtdüm. Bu söhbətin gec-tez olacağını gözləyirdim, söhbət bitmişdi, Yalçın özünə lazım olan cavabları almışdı, onun son sözləri ilə elə bil üstümdən yük götürülmüşdü. Mühasibatlığa doğru yönəldim, nə qədər baxılacaq, yoxlanılacaq hesabatlar məni gözləyirdi...

***Yalçın***

...İşdən tez çıxıb Gülçinin dediyi ünvana sarı yola düşdüm. Avtomobil də sanki həyəcanımı hiss edir, elə bil qanad açıb Novxanı tərəfə şütüyürdü. Yolboyu Gülçinə olan çılğın, təlatümlü hisslərim aşıb-daşır. Elə bil, bütün kainat Gülçindən ibarətdir - onun gözlərinin dərinliyi, saçlarının dalğası, barmaqlarının fırçaya toxunuşu...

O məndən uzaqda yaşasa da, nəfəsimdə, döyünən qəlbimdə alovu sönmək bilməyən bir tonqal kimi yanır. Mən sanki onunla birgə nəfəs alır, onunla birgə darıxır, ondan ayrı, amma onunla birgə yaşamağa çalışırdım. Gözlərim gah küçələrin divarlarında, gah vitrindəki bir rəsm afişasında onun siluetini axtarırdı. Onun bircə baxışını düşünmək belə bədənimi titrədirdi. Daxilimdə qəribə bir qüvvə vardı - məni ondan uzaqlaşdırmaq istəyən bir qorxu, bəlkə də tərəddüd. Amma eyni zamanda başqa, daha güclü bir cazibə məni ona doğru çəkirdi. Mən bu daxili savaşda tərəddüdü məğlub edir, hər addımda Gülçinə yaxınlaşmaq üçün özümlə vuruşurdum. Yol uzandıqca mənim içimdəki ehtiras daha da böyüyürdü. Onun dünyasında olmaq və onunla bütün dünyanı unutmaq istəyirdim.

Daxilimdə formalaşan bu hisslər tikanlı bir qızılgülü xatırladırdı - həm gözəldi, həm incidir, həm də canımı yandırırdı. Mən o tikanlara toxunmaqdan qorxmur, əksinə, onların verdiyi ağrını sevirdim. Hər dəfə Gülçinin adını pıçıldayanda, sanki qanım dalğalanırdı. Onun adı mənim damarlarıma hopmuşdu, mənim mövcudluq səbəbimə çevrilmişdi. Gülçinin məni öz dünyasına - o sirli, rənglərlə yoğrulmuş emalatxanasına dəvət etməsi məni xoşbəxtlərin xoşbəxti etmişdi.

Gülçinin göndərdiyi ünvan məni böyük, tünd qırmızı darvazalı həyət evinin qarşısına gətirdi. Elə əlimi zəngə uzadırdım ki, qapının aralı olduğunu gördüm. Yavaşca daş plitələr döşənmiş səliqəli həyətə daxil olanda sanki fərqli bir zamana keçdim.

Həyətin başında yerləşən emalatxanaya daxil oldum, tavanları hündür, küncləri kölgəyə qərq olmuşdu. Hər tərəfdə sənətə aid səliqəli xaos hökm sürürdü. Yersiz olmayan bir qarışıqlıq adamın könlünü oxşayırdı. Otağın sol tərəfində, döşəmədən tavana qədər yüksələn böyük pəncərələr vardı. Pəncərələrə bağlanmış ağ, nazik tül pərdələr gün işığını süzüb içəri yayır, sanki rəsmləri və fırçaları yumşaq bir işıqla oxşayırdı. Günorta saatlarında bu işıq otağın içində rəngli toz dənəciklələri kimi süzülür, havada rəqs edən hissəciklərə çevrilirdi.

Emalatxananın mərkəzində böyük bir masa yerləşirdi - üzərində boya ləkələri, fırça izləri vardı. Masanın ətrafında döşəməyə dağılmış kağızlar, yarımçıq rəsmlər, buruqlanmış eskizlər vardı. Hər tərəfdə açıq boya qabları sıralanmışdı - biri yaşılın dərin tonunda, biri qırmızıya çalan narıncıda, digəri mavi dəniz kimi parlaq... Boş bir banka içində suya batırılmış çoxlu fırçalar vardı. Divarlardakı iri kətanların - bəziləri tamamlanmış, bəziləri isə yarımçıq idi. Bəzi kətanlarda qadın fiqurları - ay işığında bədənə toxunan kölgələr, onların aralanmış dodaqları, qeyri-müəyyən ifadəli gözləri yer alırdı. Digər kətanlarda isə abstrakt səhnələr çəkilmişdi.

Otağın sağ küncündə Gülçinin sevdiyi yasəməni rəngdə geniş divan və kreslolar vardı. Onun yanında bənövşəyi torşer dururdu -abajuru bir qədər köhnəlmiş, amma hələ də işıq saçmağa davam edən klassik lampa... Yəqin ki, Gülçin bəzən burada oturub eskizlərinə baxar, bəzən də susqun şəkildə qəhvəsini udumlayıb pəncərədən çöldəki səssiz həyatı izləyərdi.

Emalatxananın bir küncündə isə sanki heç vaxt təmizlənməmiş bir radio yerləşirdi - tənha bir musiqiçi kimi arada bir köhnə caz parçaları səsləndirərdi. Bu musiqi rəssamın hər fırça hərəkətinə ritm verirdi.

Emalatxanada boya qoxusu ilə yanaşı, Gülçinin ətri də hiss olunurdu. Emalatxana elə bir yerdə idi ki, oraya daxil olan kənar adam sanki başqa bir dünyaya, zamanın mövcud olmadığı, yalnız duyğuların və yaradıcılığın hökm sürdüyü məkana düşürdü. Orada hisslər danışırdı. Bu emalatxana, sadəcə rəsmlərin doğulduğu yer deyildi. Bu məkan onun ruhunun evi idi və o evi yalnız o nəfəs alaraq canlandırırdı. Sağa-sola göz gəzdirdim, elə bu vaxt emalatxananın sağındakı mətbəxdən Gülçinin çıxdığını gördüm... Gülümsəyərək mənə yaxınlaşdı, əlini uzatdı. Ehmalca əlini sıxıb salamlaşdım. Əlimi buraxmadan məni tamamlanmamış tablolarından birinin qarşısına çəkib apardı. Tablodan daha çox, baxışlarım ona zillənib qalmışdı, saçlarını dağınıq toppuz şəklində toplayıb qələmlə yığmışdı. O, rənglərin, fırçaların arasında füsunkar sənət tanrıçası kimi dayanmışdı. Əynində açıq, üzərinə boya ləkələri düşmüş ipək köynək və qısa ətək vardı. İncə beli, gülümsər siması və barmaqlarında tutduğu nazik fırça ilə o, bu dəqiqə bütün dünyaya hökm etməyə hazır idi! Tablonun qarşısında dedi:

- Bax, çoxdandı bu rəsmin üzərində işləyirəm, adı "Çiçək açan qadın"dır... Bilirsən, qadın nə vaxt çiçək açır?

Sakit, amma ehtiraslı səslə cavab verdim:

- Sevilləndə... Qadın sevib-seviləndə ruhu da, baxışları da çiçək açır...

Onun hər hərəkəti, fırçanı kətana çəkərkən qaldırdığı qolundakı əzələlərin incə oyunu, toppuzdan ayrılan tellərinin boynunda oynaması məni ehtiras və heyranlıq içində donub qalmağa məcbur edirdi. Mən kənardan izləyirdim, amma artıq dayanmaq mümkün deyildi. Vücudumun hərarəti yüksəlir, nəfəsim qısılırdı. O isə fırçanı bir an dayandırdı və astaca mənə doğru çevrildi. Göz-gözə gəldik. Onun gözəl, dərin gözlərində hər şey var idi - çağırış, arzu, dəvət... Sözlər artıq əhəmiyyətini itirmişdi. Sonra əllərini sinəmə qoydu, dodaqlarıma yapışdı... Həmin an öpüşməyimiz artıq təkcə ehtiyac deyildi - bu, qarşılıqlı sevgi etirafı idi, uzun müddətdir içimizdə qaynayan və susdurduğumuz bir alovun partlayış anı idi. Onun nəfəsi, dodaqlarının titrəyişi, bədəninin azacıq irəli əyilməsi - hər şey içimdə dəlicəsinə bir arzu yaratdı. Əllərim belinə dolandı, onu özümə sıxdım. Dodaqları bənzərsiz idi və ehtirasla alışıb-yanırdı. Sanki o da uzun zamandır bu anı gözləyirmiş kimi bütün varlığı ilə mənə qapıldı. Öpüşümüz dərin, çılğın ehtirasla dərinləşdi. Barmaqları kürəyimdə gəzdikcə bədənimdə hər hüceyrə oyanmağa başladı. Barmaqları incə, lakin qətiyyətli idi - çəkindiyi heç nə yox idi, onu hiss etdikcə, ruhumun içinə qədər istilik yayılırdı.

Emalatxananın səssizliyi bir anda nəfəsimizin, toxunuşlarımızın, sükut içində baş verən hərəkətlərin səsləri ilə doldu. Fırçalar masadan düşdü, bir boya qabı yuvarlanıb yerə çırpıldı - amma biz, elə bil, heç nə eşitmirdik. Yalnız bir-birimizi hiss edirdik. O, öpüşlər arasında mənim dodaqlarımdan boynuma doğru sürüşəndə, gözlərimi yumdum və nəfəsimi udmağa çalışdım. Hər toxunuşunda içimdə bir tonqal alovlanırdı. Əllərimiz bir-birimizin bədənində ehtirasla, amma tələsmədən gəzirdi, sanki bu anı uzatmaq istəyirdik. O, mənim çənəmi, sonra boynumu öpəndə əllərim onun belindən yuxarı qalxıb saçlarının arasında dolandı. Saçlarının qoxusu nəfəsimə qarışdı. Boynunu ehtirasla öpdüm, Gülçin ahəstə, lakin içdən gələn bir inilti ilə nəfəs aldı. Bu səs məni məst etdi. Onun bədəni qollarımda əriməyə başladı, sinəsi sinəmə toxunduqca, bir-birimizə daha da qarışdıq.

Otaqda nə işıq, nə səs, nə rənglər önəmli deyildi artıq. Gülçinlə mən bir-birimizə toxunduqca, cansız emalatxana da bizim nəfəsimizlə canlanırdı. Kətanlar sanki susub bizi izləyirdi. Rənglər sanki bizə qarışmaq, bu anın bir parçasına çevrilmək istəyirdi. Gülçin o anlarda artıq sadəcə bir rəssam deyildi. O, öz sevgi fırçası ilə yeni bir "mən" çəkirdi. Mən isə onun bu əsərində əriyirdim. Onun toxunuşlarından sonra elə bil yenidən doğulurdum. Biz susaraq bir-birimizdə yox olmuşduq, amma bədənlərimiz dil açıb danışırdı və bu dil heç bir sözə ehtiyac duymurdu...

***Gülçin***

Mətbəxin pəncərəsindən Yalçının həyətə girdiyini görmüşdüm. Lakin irəli getmədim ki, özü bu sirli-sehrli rəngli emalatxanama kimsənin müşayiəti olmadan daxil olub buranın əsrarəngiz aurasına düşsün. Hiss etdim ki, emalatxananın xüsusi ab-havası onu heyran edib. Heyrət və təəccüb içində emalatxananın hər künc-bucağına uşaq marağı ilə baxması, gülümsəməsi diqqətimdən yayınmadı. Onun heyranlıq ifadə edən yaraşıqlı simasına doyunca baxandan sonra irəli yeriyib salamlaşdım, əlindən tutub, çoxdandır üzərində işlədiyim "Çiçək açan qadın" tablomu ona göstərdim. Bu, ən sevdiyim tablolardan idi. Yalçınla tanış olduqdan sonra onu çəkməyə başlamışdım. Bu, sanki mənim psixoloji portretim idi. Yalçın da sevib-sevilən qadının çiçək açdığını deyəndə, lap ürəyimdən oldu, çünki elə rəsmimin konsepti də bu idi - sevən qadını eşqin bütün rənglərində kətan üzərində canlandırmaq...

Özümüz də hiss etmədən bir-birimizə o qədər yaxınlaşmışdıq ki, nəfəslərimiz bir-birinə qarışırdı. Bilmədim ki, onun dolğun, ehtirasdan alışıb-yanan dodaqlarını nə zaman öpməyə başladım...

O anı necə ifadə edə bilərəm?.. Sanki illərlə içimdə lal qalmış bir həsrət dil açdı. Yalçın məni qucaqlayıb öpdükcə qəlbimdə yığılıb qalan duyğular yavaş-yavaş alova çevrilirdi. Gözlərinə baxanda zaman sanki bir anlıq dayanmışdı. Bütün ətraf - müxtəlif ölçülü fırçalarım, açıq qalan boya qutuları, divarların dibi boyu düzülmüş kətanlar və emalatxananı dolduran tanış qoxu - hamısı yox oldu. Yalnız onun baxışları qaldı. Dodaqlarıma toxunanda içimdə sanki vulkan lavaları əriyib axırdı. Bu, təkcə bir öpüş deyildi. Bu, sanki susqun illərin dilə gəlməsi, bədənimdə donub qalmış hisslərin oyanışı idi. Əvvəlcə yavaş, utancaq, çəkingən idi. Amma dodaqlarımız bir-birinə alışdıqca, içimizdəki ehtiras dalğalanmağa başladı. Hər toxunuş bir dəli edirdi. Onun əlləri belimə dolananda bədənimdə bir titrəmə hiss etdim. Barmaqları yavaş-yavaş kürəyimdə dolaşdıqca sanki içimdəki bütün çəkingənlik yox olurdu. Öpüşümüz dərinləşdikcə, nəfəsimiz bir-birinə qarışır, bədənlərimiz bir-birinə uyğun bir ritm tuturdu. Əllərim öz-özünə onun sinəsinə toxundu. Barmaqlarım ürəyinin ritmini hiss etdikcə, sanki onun içində də mənim qədər qarışıq, amma eyni zamanda çılğın bir dünya oyanırdı. O dünya yalnız mənim üçün açılmışdı. Bu dünya indi mənim altımda inildəyirdi... Elə bil emalatxanada hər şey səssizcə əriyirdi. Rənglər, fırçalar, divardakı kölgələr... Hər şey bizim nəfəsimizə qarışır, bizim ehtirasımıza uyğun bir harmoniya ilə titrəyirdi. Mən artıq rəssam deyildim, indi rəssam o idi - mən isə onun baxışlarında, toxunuşlarında və öpüşlərində çəkilən bir rəngli portret idim. Bizim öpüşlərimiz dərinlərdən doğulan, iki insanın bir-birinə yavaşca əyilib əbədiyyətin sirrini açdığı bir an idi. Mən onunla bu sirrin içində əriməyə razı idim.

O öpüş bizə susmağı öyrətdi. Sözlər artıq lazım deyildi. Nə demək istədiyimizi barmaqlarımız, nəfəsimiz, bədənimizin hər xırda titrəyişi söyləyirdi. Yalçın o anda mənim yalnız bədənimə yox, ruhuma da nüfuz edirdi. Onun dodaqlarında təkcə ehtiras yox idi - orada seçilmək, sevilmək arzusu vardı. Mən isə bu öpüşdə özümü, qadınlığımı, sənətimin belə izah edə bilmədiyi duyğularımı yaşayırdım. Mənim dünyamın mərkəzində indi yalnız Yalçın var idi...

*(Ardı var)*